Nəriman ƏBDÜLRƏHMANLI



# Ahmet Hamdi Tanpınar:

# Söz və məmləkət sevdası

***O, səyyah kimi ucqar küçələrə belə baş çəkir, dükan-bazarın səs-küyünü dinləyir, rastına çıxanlarla söhbət eləyir, nəticədə özü gəzdiyi şəhərə çevrilir – o şəhər müəllifinin dililə öz hekayətini danışır. Həmin hekayətdə türk boylarının Anadolunu fəthi, Ankara qalasının şahidi olduğu döyüşlər, Səlcuqlu dövrünün abidələri, Ərzurum zəlzələsi, Mustafa Kamal Atatürklə görüşlər, xalq dastanları və türkülər, Osmanlı sultanlarının, şairlərinin, musiqiçilərinin... taleyi romanlarda olduğu qədər maraqlıdı...***



(əvvəli ötən sayımızda)

*Amma şübhəsiz ki, Tanpınarı tam ifadə eləyən əsəri "Beş şəhər"di...*

### 6.Həyatının beş şəhəri

Daha bir böyük türk romançısı, Nobel mükafatı laureatı Orxan Pamuk öz yaradıcılığından söz açanda Tanpınardan təsirləndiyini gizlətməyib. Tanpınarın İstanbulu ilə Pamukun İstanbulu arasında təkcə məkan doğmalığı yox, ruh doğmalığı var: məndə belə bir hiss var ki, Pamuk Tanpınarın "Beş şəhər"ini oxumasaydı, "İstanbul, şəhər və xatirələr" o qədər dolğun və duyğulu alınmazdı.

Əslində, ustadı Yəhya Kamalın xatirəsinə həsr elədiyi "Beş şəhər" Tanpınarın məmləkət və millət sevgisinin misilsiz abidəsidi...

Uşaqlıq çağlarında taleyinə boyun əyib əyalətləri dolaşan adam artıq yetkin yaşında öz oxucusunun əlindən yapışıb yenidən yollara düşür, Ərzurumu, Ankaranı, Konyanı, Bursanı, İstanbulu məkan-məkan, küçə-küçə, abidə-abidə, gəzdirir, gah yaşlılardan eşitdiklərini, gah kitablardan oxuduqlarını, gah da şahidi olduqlarını sonsuz sevgiylə nağıl eləyir...

O, səyyah kimi ucqar küçələrə belə baş çəkir, dükan-bazarın səs-küyünü dinləyir, rastına çıxanlarla söhbət eləyir, nəticədə özü gəzdiyi şəhərə çevrilir – o şəhər müəllifinin dililə öz hekayətini danışır. Həmin hekayətdə türk boylarının Anadolunu fəthi, Ankara qalasının şahidi olduğu döyüşlər, Səlcuqlu dövrünün abidələri, Ərzurum zəlzələsi, Mustafa Kamal Atatürklə görüşlər, xalq dastanları və türkülər, Osmanlı sultanlarının, şairlərinin, musiqiçilərinin... taleyi romanlarda olduğu qədər maraqlıdı...

"Bir şəhəri sevmək – eşqə səbəb aramaqdı" fikri, əslində, Tanpınarın öz sevgisini şəhərlərin dilinə danışmaq fürsətidi. Təkcə elə İstanbulu sevməsi üçün istənilən qədər bəhanəsi var:

"Əsl İstanbul, qala divarlarından bəridə olan minarəli camelər şəhəri, Bəyoğlu, Boğaziçi, Üsküdar, Erenköy tərəfləri, Çəkməcələr, Bəndlər, Adalar bir şəhərin içində, az qala, başqa-başqa coğrafiyalar kimi, öz gözəlliklərilə bizdəayrı-ayrı duyğular oyadan, xəyalımıza fərqli yaşam formaları bəxş eləyən mənzərələrdi. Hər bir istanbullu az da olsa, şairdi, çünki iradə və zəkasıyla yeni formalar yaratmasa belə, sehrə çox oxşayan təxəyyül oyunu içində yaşayır. Bu da tarixdən gündəlik həyata, eşqdən süfrəyə qədər genişlənir..."

Bir məkana sevgini bundan yaxşı necə ifadə eləmək olar...

### 7.Zaman içində zamansızlıq

***Ahmet Hamdi Tanpınar çapında bir fikir adamının və yazıcının dünyaya çıxışı xeyli gecikdi. Bu da yəqin ki, doğulub-yaşadığı Türkiyənin keçirdiyi ictimai, siyasi və mədəni çalxantılarla bağlıydı. Tanpınarın əsərləri ən azı ötən yüzilin 60-cı illərində dünyanın fəth eləyə bilərdi. Amma o, haqqı olana son onilliklərdə çatdı, haqqında kitablar yazıldı, elmi araşdırmalar aparıldı, xatirələr qələmə alındı, əsərləri dünyanın 30-a yaxın dilinə çevrildi. Maraqlısı da budur ki, müxtəlif təbəqələrə, dini, siyasi, mədəni görüşlərə mənsub olan adamlar belə, Tanpınar irsinin dəyəri barədə həmfikir oldular...***

Əhməd Həmdi Tanpınar vaxt tapmadığından düşündüklərinin böyük bir hissəsini kağıza köçürə bilməyib...

1943-1948-ci illərdə, ədəbiyyatdan, demək olar, ayrı düşmək zorunda qalıb, siyasətə, ictimai fəaliyyətə daha çox vaxt ayırıb. O illərdə Maraşdan millət vəkili seçilib, sonra Milli Təhsil Nazirliyində müfəttiş işləyib, sonra isə akademiya və unuversitetdə müəllimliyə qayıdıb...

Bir də 50-ci illlərin əvvəllərində Türkiyənin qapılarıdünyaya açılanda bu siyasətin bəhrəsindən Əhmət Həmdi Tanpınara da pay düşüb, İngiltrə, Belçika, Hollandiya, İspaniya, İtaliya, Almaniya ve Avstriyada keçirilən konqreslərdə və forumlarda iştirak eləyib.

O dövrdə də "Hüzur" romanından başqa yalnız "Şeirlər"(1961) kitabınınəşr etdirməyə imkan tapıb. Böyük dostuna vəfa borcu kimi qəbul olunan "Yəhya Kamal" monoqrafiyası isə Ustadın vəfatından (1962, 24 yanvar) az sonra işıq üzü görüb.

*Ahmet Hamdi Tanpınar çapında bir fikir adamının və yazıcının dünyaya çıxışı xeyli gecikdi. Bu da yəqin ki, doğulub-yaşadığı Türkiyənin keçirdiyi ictimai, siyasi və mədəni çalxantılarla bağlıydı. Tanpınarın əsərləri ən azı ötən yüzilin 60-cı illərində dünyanın fəth eləyə bilərdi. Amma o, haqqı olana son onilliklərdə çatdı, haqqında kitablar yazıldı, elmi araşdırmalar aparıldı, xatirələr qələmə alındı, əsərləri dünyanın 30-a yaxın dilinə çevrildi. Maraqlısı da budur ki, müxtəlif təbəqələrə, dini, siyasi, mədəni görüşlərə mənsub olan adamlar belə, Tanpınar irsinin dəyəri barədə həmfikir oldular.*

Əksər araşdırıcıların fikrincə, Tanpınarın əsərlərinə marağın bu qədər artmasının səbəbi tarixi qat və gələcəyin, həyatın və mühitin bir-birilə sehirli şəkildə çulğaşmasıdı; yəni təkcə Şərq-Qərb və Məhşər günü deyil, əksinə, dövr, dövrün naməlum sonu, xüsusilə əsərlərində təsvir elədiyi zaman kəsiyinin özü cazibə hədəfinə çevrilməyə başlayıb...

Əlbəttə ki, bu marağın birinci səbəbi Tanpınarın mədəni, ədəbi və fikri axtarışa əsaslanan utopik mühit yaratmasıdı. Onun hüdudsuz düşüncəsində türkçülüyə də, Atatürkçülyə də, islamçılığa da yer var.

Bəlkə elə buna görə, artıq araşdırıcılar "Tanpınar obrazı" ifadəsini işlətməyə başlayıb, bunun vasitəsilə də modernlik axtarışlarına çıxıblar...

***

Bakıdakı Yunus Əmrə İnstitutunun 2016-cı ildə keçirdiyi "Tanpınarı kəşf edirəm" esse müsabiqəsinə də məhz bənzərsiz yazıçının yaradıcılığına sevgim üzündən qoşulmuşdum...

Xoşbəxtlikdən qələmə aldığım "Beş şəhər və məmləkət sevdası" adlı essem qaliblər arasına düşdü, 2017-ci ilin aprelində beş qələm adamıyla birgə Türkiyənin beş şəhərini (səyahət marşrutunda Eskişehirlə əvəz olunduğundan Ərzuruma sonrakı il üz tutdum) Tanpnarın iziylə gəzmək fürsəti qazandım. İstanbul, Ankara, Konya və Bursanı dolaşdıqca böyük söz adamının əsərlərindəki ab-havanı daha canlı duymağa başladım.

***Artıq Əhməd Həmdi Tanpınarın "Hüzur", "Səhnədən kənardakılar"Aydakı qadın" romanları, bir sıra hekayələri də dilimizə çevrilib, yaradıcılığı haqqında Azərbaycan oxucusunda yetərincə bitkin təsəvvür formalaşıb.***

***Tanpınarın bütövlükdə"-kəşfi"sə hələ uzun illər davam eləyəcək...***

**May 2024**